## TEATR SƏNƏTİ

**UOT 792.03**

***Ülkər Məmmədova***
***AMEA Memarlıq və İncəsənət İnstitutunun doktorantı***
***AZ 1143, Bakı, H.Cavid pr., 31***
***E-mail:* nicat.mammadov.87@mail.ru**

# UŞAQ NAĞIL-TAMAŞALARINDA İNSAN, HEYVAN VƏ ALLEQORİK PERSONAJLAR - MİFDƏN REALLIĞA DOĞRU

**Xülasə:** Məqalədə Azərbaycan milli uşaq ədəbiyyatında və dramaturgiyasında maraqlı yeri olan nağıl və dastanların əsasında yazılmış nağıl-pyeslərin personajlarının tamaşalarda öz nağıl həyatlarından real həyat hadisələrinin daxilinə necə transver etməsindən, müxtəlif quş, heyvan, bitkilər, təbiət hadisələri və digər canlı və cansız simvolik və alleqorik obrazların vasitəsi ilə müəlliflərin mövcud real həyat problemlərinə münasibət göstərmələrindən bəhs edilmişdir. İnsan, quş, heyvan və digər alleqorik obrazların bədii və səhnə həllindən söhbət açan müəllif Əttar Təbrizinin, Nizami Gəncəvinin, Füzulinin və digər klassiklərin yaradıcılığında maraqlı yer tutan təmsil janrının və simvolik obrazların haqqında qısa məlumat vermiş və sonralar bu janrdan istifadə edilərək yazılan ədəbi nümunələrdəki quş, heyvan, çiçək və digər alleqorik obrazların vasitəsi ilə müəlliflərin zamanın mövcud ictimai-siyasi və sosial-mənəvi problemlərinə münasibətini diqqətə çatdırmışdır.

**Açar sözlər:** Janr, üslub, pyes, ideya, mövzu, üslub, alleqorik, zaman, obraz, tərz, təcəssüm, ifa, təfəkkür.

Azərbaycan xalqının zəngin rəmzi məna yükü daşıyan təmsil və alleqorik əsərləri vardır. Bu ədəbi janrlara zaman-zaman həyatın ağırlığından, ictimai-siyasi proseslərin gərginliyindən, sosial-mənəvi durumun acınacaqlı vəziyyətdə olmasından razı qalmayan şair və dramaturqlar istifadə etmişlər. Onlar bu tip ədəbi nümunələrin vasitəsi ilə öz fikirlərini müstəqim deyil, məcazi vasitələrlə ifadə etməyi bacarmışlar.

Bu maraqlı ədəbi janrın nümunələrinə Azərbaycanda Orta Əsrlərdən üzü bəri həmişə rast gəlinir. Məsələn, Əttar Təbrizinin "Quşların söhbəti", Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərindəki "Bayquşların söhbəti", Məhəmməd

Füzulinin "Bəngü-badə", "Səhhət və mərəz" kimi əsərlərində filosof şairlərin siyasi-ictimai haqsızlıqlara və sosial-mənəvi problemlərə qarşı etirazları diqqəti cəlb edir. Təmsil janrında yazılmış əsərlərdən bəlli olur ki, bu janrdan həmişə çətin tarixi dönəmlərdə, kəskin siyasi durumlarda istinad edilmişdir. Həmin janr üslub formasından Azərbaycan ədəbiyyatında da geniş istifadə edilmişdir. Təmsil üslubunda yazılmış əsərlərdən bəlli olur ki, Azərbaycan xalqının ədəbiyyatında həmişə haqsızlığa, bərabərsizliyə, istismara və zülmə qarşı etiraz edilmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında bu janra xüsusi dəyər verilmiş, yazılmış təmsillərdəki insan, quş, heyvan və digər alleqorik obrazların timsalında siyasi-ictimai proseslərə, sosial-mənəvi vəziyyətə, istismara, haqsızlığa və savadsızlığa qarşı münasibət bildirilmişdir. Həmin tarixi dönəmdə yazılan uşaq ədəbiyyatında və təmsillərdə rast gəldiyimiz personajların böyük rəmzi mənaları, əslində zamanın dərdini çəkən Hadinin , Şaiqin, Sabirin, Səhhətin və digər xalqının dərdini-tasasını qəlbində daşıyan ziyalılarının zamanın qorxunc problemlərinə qarşı ümumiləşdirilmiş formada xəbərdarlıqları idi

XX əsrin əvvəllərində təmsil janrına marağın artmasında mövcud siyasi-ictimai problemlərin, sosial-iqtisadi və ideoloji-təfəkkür problemlərinin böyük rolu olmuşdur. Həmin illərdə güya uşaqlar üçün yazılan "Xoruz", "Keçi", "Buz", "Xərçəng, ördək və balıq", "Dövşan", "Qarğa və tülkü" və digər təmsillərin mənasına diqqətlə baxanda görürsən ki, bu təmsillər az yaşlı uşaqlar üçün deyil, yaşı böyük, ağlı və düşüncəsi kiçik insanlar üçün yazılıblar ki, bəlkə siyasi-ictimai hələ də kiçik qalmış bir çox insanlar mövcud durumu az da olsa dərk edib, mövcud problemlərə qarşı reaksiya verə bilsinlər...

XX əvvəllərində Azərbaycan xalqının tarixində ictimai-siyasi və ideoloji-fəlsəfi münasibətlər baxımından böyük bir milli qalxınma prosesi yaşanırdı. Bu qarışıq və çətin tarixi dönəmdə əsrin qələmə alınan milli uşaq ədəbiyyatı və dramaturgiyasında istinad edilər simvolik və mifik obrazların timsalında öz fikirlərini bəlli edən qələm sahibləri təbii ki, öz xalqının istək və arzularını, mənəvi və hüquqi tələblərini ortaya qoymağa çalışırdılar. Maraqlı uşaq yazıçısı Abdulla Şaiqin 1910-1913-cü illərdə yazdığı uşaq ədəbiyyatında bu istiqamətdə başladığı yolu sovet dönəmində davam etdirən Mirmehdi Seyidzadənin, Ə.Abbasovun, İsgəndər Coşqunun və digər dramaturqların yaradıcılığında rast gəldiyimiz rəmzi nağıl obrazların və təmsillərin vasitəsi ilə təbii ki, müəlliflər öz oxucularına və tamaşaçılarına müasir dünyavi problemlərdən söz açır, zamanın eyiblərini, mənfiliyi, istismarı, xudbinliyi, bütün insana yaraşmayan eybəcərlikləri birmənalı olaraq tənqid edirdilər. Bütün zamanlarda tənqidi mövqeyi ilə daha çox diqqəti cəlb edən bu maraqlı janr və üslubdan bədii vasitə olaraq istifadə edən şair və dramaturqlar onların xoşuna gəlməyən, insanlara zərər verən, ümumi inkişafa mane olan qüvvələri bu yazı üslubunun vasitəsi ilə istədikləri kimi tənqid edə bilirdilər. Məsələn, XX əsrin əvvəllərində uşaqlar üçün yazılmış "Gözəl Bahar", "Eloğlu", "Vətən", "Qızıl quş", "Nərgiz", "Ayaz", "Məlik Məmməd", "Dədə Qorqud", "Meşədə XIX " kimi səhnə əsərlərindəki simvolik və alleqorik personajların xarakterləri, əməl və amalları bu zanının problemlərinə xidmət etdiyi

üçün daha çox maraqla qarşılanırdı. Bu əsərlərdəki personajların timsalında dünyanı idarə etməyə çalışan imperialist qüvvələri kəskin tənqid edilir, əzilən tərəfə qalib olmaq yolları göstərilirdi.

Abdulla Şaiqin 1910-cu ildə uşaqlar üçün yazdığı "Gözəl Bahar" nağıl-pyesindəki simvolik personajlar da bu mənada böyük maraq doğurur. Simvolik üslubda yazılmış bu səhnə əsərində iştirak edən 40-a yaxın alleqorik obrazın çoxunun quşlar, güllər olduğunu görürük. Pyesdə təbiət qüvvələri, heyvan və digər simvolik obrazlar da vardır ki, şair-dramaturq onların vasitəsi ilə zamanın ağır şərtlərini, ilə çar üsul-idarəsinin müsəmləkə əsarəti altında idarə etdiyi ərazilərdə yerinə yetirdiyi şiddət və zülmü açıb göstərmişdir. Abdulla Şaiqin yaradıcılığını tədqiq edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Minəxanım Əsədli "Gözəl Bahar" pyesinin mövzusunu və ideyasını təhlil edərkən yazmışdır: "Pyesdə qış istibdadın, yaz isə azadlığın rəmzi kimi səciyyələndirilmişdir. Torpaq, Su, Qaranquş,Yer, çəçəklər – Baharın ordusunu, Boran, Qar, Külək isə Qışın ordusunu təmsil edirlər. Müəllif təbiətin bu ayrı-ayrı cəhətlərini də sadə bir dillə uşaqlara başa salır və bu haqda alleqorik şəkildə onlara məlumat verirdi." (1)

Abdulla Şaiq "Gəzəl Bahar" pyesinin məhz rus imperiyasının zülmünə və Azərbaycan xalqının öz milli istiqlaliyyəti uğrunda mübarizə aparmaq iqtidarında olduğunu bildirdiyini filoloq alim Əziz Mirəhmədov da öz yazılarında diqqətə çatdırmışdır. Akademik bu uşaq pyesində qəzəbli Qış obrazını rus imperiyasının təmsilçisi olaraq dəyərləndirmiş, onun qəddarlığının, fitnə-fəsadının sonunun yaxınlarda Yaz obrazının timsalında sona yetəcəyini ideyanın əsası olaraq təhlil edirdi. Bu əsərdə acıqlı Qışın zülmündən vvxilas omağa çalışan Gözəl Bahar isə müstəqillik arzusunda olan Azərbaycan xalqının ümumiləşdirilmiş obrazı olaraq dəyərləndirilmişdir. Sonda Gəzəl Baharın zalimin üzərində qələbə çalacağını maraqlı şəkildə əsaslandıran dramaturq burada maraqlı bir problemə də toxunmağı özünə vacib hesab etmişdir. Əsəri diqqətlə oxuduğumuz zaman həmin illərdə Azərbaycan ziyalıları arasında baş vermiş ideoloji fikir ayrılıqlarını tənqid edən dramaturq bolşeviklərin tərəfinə keçən ziyalıların çoxunun səhv etdiklərini anlayaraq, Qışın ordusundan ayrılıb, Yazın tərəfinə keçməsini alqılamışdır.

İlk uşaq dramaturgiyasının nümunəsi olaraq yazdığı bu pyesdə Abdulla Şaiq açıq-aşkar romantik və simvolik obrazların vasitəsi ilə həmin ədəbi janrın prinsiplərinə uyğun gələn maraqlı personajların vasitəsi ilə çar mütləqiyyət rejiminə rus imperiya siyasətinə qarşı meydan oxumuş, onların zülmünə yaxın zamanlarda son qoyulacığına işarə etmişdir. Bu pyesdəki maraqlı cəhətlərdən biri də, quşların və çiçəklərin obrazlarının müsbət və sülhsevər olmalarıdır. Onlar Gözəıl Baharın qalib gəlməsi üçün ona yardımçı olur, imkanları daxilində haqq işində onun yanında olduqlarını göstərirlər. Abdulla Şaiq bu səhnə əsərini yazdığı illərdə özünün dərs dediyi məktəbdə uşaqlar ilə tamaşaya hazırlasa da, bu maraqlı pyesə ilk dəfə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra (1922-ci ildə) peşəkar səhnədə Abbas Mirzə Şərifzadənin quruluşunda hazırlanmışdır. A.M.Şərifzadə romantizm mərhələsinin prinsiplərini gözəl bilən rejissor və aktyor olaraq, tamaşada Abdulla Şaiqin ali məqsədini daha da qabartmış, Gözəl Baharın

amansız düşməni olan zalim Qışın və onun tərəfdarlarının üzərində qazandığı qələbəni daha maraqlı və poetik tərzdə əsaslandırmışdır. Elə ona görə də, "Göğzəl Bahar" milli uşaq teatrımızın ilk nümunəsi olsa da, tamaşası baxımlı və təsirli olmasına görə tamaşaçılar tərəfindən maraqla qarşılansa da, hazırlandığı Milli Dram Teatrının səhnəsində cəmisi bircə dəfə, gündüz tamaşası olaraq göstərilmişdir. Təbii ki, böyük zəhmət və həvəslə hazırlanmış bu ilk uşaq tamaşasının belə soyuq qarşılanmasının haqqında zamanın teatr ictimaiyyəti heç bir səbəb yaza bilməmişdilər. Yaza da bilməzdilər. Çünki pyesi Şərifzadəyə sovet hakimiyyətinin Azərbaycanı ilhaq etməsinin ildönümü münasibəti ilə hazırlamağı sifariş etdirmişdilər. Sifarişçilər unutmuşdular ki, romantiklər satqın ola bilmirlər... Ona görə də, A.M.Şərifzadə "Gözəl Bahar" uşq pyesini də, xüsusi təmtəraqla və böyük pafosla səhnəyə hazırlamışdı. Tamaşada zülm və zalimə qalib gələn Gözəl Bahar alqışlanır, təqdir edilirdi. Bu hadisədən sonra xeyli müddət bu tip pyeslərin səhnəyə hazılanmasına imkan verilmədi. AmmaAzərbaycan xalqının qədim mədəni-ədəbi zənginliklərini məhv edib, yaddaçlardan silmək elə də, asan bir iş deyildi...

1930-1945-ci illərdə hazırlanan "Nərgiz", "Məlik Məmməd", "Qızıl quş" və digər nağıl-pyeslərdəki simvolik obrazların maraqlı səhnə təqdimatlarından da bəlli olur ki, bu janra milli teatrda həmişə ehtiyac diqqət olmuşdur. Məsələn, "Məlik Məmməd" nağılının mənfi personajı olan Divin məğlubiyyətini zamanın siyasi problemləri müstəvisində təhlil edən tənqidçilər, bu qorxunc məxluqu ideya cəhətincə dünyaya meydan oxuyan faşist rejiminin yaradıcısı Hitlerlə eyniləşdirmişlər. Müharibə illərində Gənc Tamaşaçılar Teatrının repertuarında yer alan belə simvolik nağıl-tamaşaların hazırlanmasının vacibliyindən söhbət açan Uşaq Teatrının rejissorlarından biri, maraqlı sənətkar Soltan Dadaşovun tamaşaya həsr etdiyi məqalədə məhz mövzunun aktuallığından bəhs edilmişdir. O, həmkarı Zəfər Nemətovun quruluş verdiyi bu maraqlı tamaşanı təqdir edib yazırdı: "Azərbaycan xalq ədəbiyyatında, o cümlədən dastan və nağıllarında mərdlik, qəhrəmanlıq, qorxmazlıq kimi müsbət xüsusiyyətlər, sevgi, dostluq, sədaqət kimi nəcib duyğular vardır. Xalq arasında ən çox yayılmış nağıllarımızdan biri də "Məlik Məmməd" nağılıdır ki, burada mərdlik, qəhrəmanlıq, qələbəyə inam, hər cür çətinliyə üstün gəlmək istəyi, xalqa məhəbbət və dostluq kimi qiymətli xüsusiyyətlər vardır. Böyük vətən müharibəsi günlərində belə əsərlərin hazırlanması zəruridir." (2)

Müharibədən sonrakı illərdə də teatr öz ənənələrini qoruyub saxlamağa çalışırdı. Teatrda kiçik yaş qurupuna daha çox xoş gələn nağıl-pyeslərin hazırlanması işinə ciddi fikir verilirdi. Məsələn,1946-cı ildə Gənc Tamaşaçılar Teatrının səhnəsində hazırlanan "Dədə Qorqud " tamaşası xalqın milli qəhrəmanlıq abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında yazılmışdı. Bu tamaşa da həmin illərdə kollektivin uğuru sayıldığından, haqqında maraqlı məqalələr yazılmışdı. Bu səhnə əsərinin tamaşası haqqında yazılmış maraqlı rəylərdən bəlli olur ki, bu səhnə əsəri də millətin tarixinə, mədniyyəti və mənəvi dəyərlərinə xidmət etdiyi üçün teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır.

Məsələn, maraqlı tənqidçi Əziz Şərifin tamaşa ilə əlaqədar olaraq yazdığı “Qaraca Çoban” adlı məqaləsində əsərin mövzu aktuallığından və ideya cəhətincə gərəkli olmasından bəhs edilmişdir. Tənqidçi pyesin ideyası və mövzu aktuallığına münasibət bildirərkən, nağıl-pyesin müəllifinə xoş sözlər ünvanlanmağı da vacib hesab etmişdir. Əziz Şərif əsərin zamanla səsləşməsini təqdir edərək yazmışdır: “Bu günədək alim dilşünas kimi tanıdığımız müəllif (yəni: Ə.Dəmirçizadə-Ü.M.) öz ilk bədii əsəri üçün “Dədə Qorqud” dastanından istifadə etməklə gözəl və təqdirəlayiq bir təşəbbüs göstərmişdir.”(3)

Əziz Şərif bu məqaləsində milli sərvətimiz olan mif və nağılların əsasında yazılmış səhnə əsərlərini təqdir edir, bundan sonra da, bu janrda uşaqlar və gənclər üçün daha çox pyeslər yazılacağına ümid etdiyini bildirirdi. Bu, elə bir dövr idi ki, Gənc Tamaşaçılar Teatrının repertuarında milli ideyalı əsərlər həddən çox azlıq təşkil edirdi.

Həmin illərdə (1959-1960-cı illər) tamaşaya hazırlanan “Nəsrəddin” nağıl-pyesi də, şifahi xalq ədəbiyyatı əsasında yazılmış olduğundan maraqla qarşılanmışdır. Əsərin müəllifi Yusif Əzimzadə xalq dilində çox işlənən lətifələrin fonunda qurduğu süjet xətti ətrafında hadisələri elə ustalıqla sıralamışdı ki, orada ali məqsəd aydın bir xətt üzrə irəliləyir, xarakterlər öz mizan və hərəkətləri ilə diqqəti cəlb edirdi. Həmin tamaşanın uğurundan bəhs edən tənqidçi alim İnqilab Kərimov yazırdı: “Şifahi ədəbiyyatın gözəl nümunələrindən biri olan bu lətifələr mürəkkəb hadisələrin mahiyyətini aydın, konkret və düzgün bir şəkildə açıb göstərir. Yazıçı böyük məna kəsb edən bu lətifələrdən, zəngin xalq dilindən, hikmətli sözlərdən çox bacarıqla istifadə etmişdir. Əsər üçün seçilmiş lətifə və ifadələr bir-biri ilə üzvi surətdə əlaqələndirilmiş, hadisələr aydın və ardıcıl bir süjet xətti ətrafında inkişaf etdirilmişdir.” (4)

1960-1970-ci illərdə Gənc Tamaşaçılar Teatrının səhnəsində hazırlanan nağıl-tamaşalarının tamaşaları da uğurlu olmuş, balaca tamaşaçıların mənəvi və estetik dünyagörüşlərində maraqlı yer tutmuşdur. Həmin illərdə hazırlanmış: “Bir saat xəlifəlik” (Abdulla Şaiaq), “Tülki məhkəməyə gedir”,”Ana laylası”, “Meşədə futbol” (İskəndər Coşqun), “Zəng səsləri” (Ramiz Heydər) və digər nağıl-pyeslərin personajlarının vasitəsi ilə müəlliflər mövcud sosial-ictimai və mənəvi-əxlaqi problemləri göz önünə sərmiş, yaxşılığı və pisliyi kiçik yaşlı tamaşaçıların diqqətinə çatdırmağa çalışmışdılar. Bu tamşaların alleqorik və rəmzi məna yüklü personajlarının timsalında uşaqlar real həyatın tələb və şərtlərini əyani olaraq yaxından izləyir və özləri üçün ümuni nəticələr çıxarmağa çalışırdılar. Məsələn, 1974-cü ildə tamaşaya hazırlanmış “Aycan” nağıl-pyesinin ideyasında müftəxorlar, cəmiyyətin mənəvi rahatlığını pozan mənfi tiplər, nəlayiq hərəkətləri, zərərli adətləri ilə insanlıq adına ləkə gətirən, cəmiyyətin rahatlığını pozan “xeyirsiz alaq otları”nın ( yəni pis insanların) tənqidi məsələsi dayanırdı. Maraqlı uşaq yazıçısı Xanımana Əlibəylinin yazdığı bu simvolik nağıl-pyesdə əsas personajlar insanlara xeyirli və zərərli bitkilərdir. Məsələn, əsərdəki Qanqal, Çayır, Pitraq mənfi obrazlardır. Tamaşanın rejissoru Ulduz Əliyevanın verdiyi səhnə quruluşunu təqdir edən Xalq artisti Ağakişi Kazımov eyniadlı məqaləsində pyesin

ideyasının aktyor ifalarında doğru açıldığını göstərib yazmışdır:”Tamaşa uşaqlarda təbiətə qarşı böyük qayğı hissi aşılayır, onları sevinc, gözəllik gətirən, şəfa verən bitkiləri qorumağa, artırmağa çağırır. Müəllif bu mühüm məsələni sadə və aydın bir dildə izah edir. Müəllifin fikrincə alaq otları hər yerdə var. Gül-çiçəyi qoruyub, onların qayğısına qalmayan, onları qıran, tapdayan uşaqlar da alaq otları kimi bir şeydir.” O, əsərdəki Aycanın obrazının dəcəlliyini, onun yuxusunda ziyanəvər Qanqalla dostluq edərək, güllərə, çiçəklərə verdiyi ziyanı anlayaraq yuxudan ayıldığı zaman dəyişməsi və onlara qayğı ilə xidmət göstərməsi rejissorun traktovkasında və aktyorların ifalarında çox maraqlı həllini tapmasını diqqətə çatdırmasını təqdir etmişdir. Maraqlı rejissor Ağakişi Kazımovun bu tamaşa ilə bağlı yazdığı maraqlı fikirləri, müsbət və gərəkli simvolik mənası olan çiçəklərin və bitkilərin rollarını ifa edən aktyorların da ifalarında maraqla ifa edildiyi yazılmışdır. Tamaşada alaq otlarına qarşı nifrət, gözəllik və rahatlıq rəmzi olan çiçəklərə, otlara qarşı isə məhəbbət və qayğı hisslərinin maraqlı ifası tamaşanın əsas ali məqsədinə xidmət edirdi.

## Ədəbiyyat:

1. Minəxanım Əsədli. Abdulla Şaiq və teatr. Bakı, “Nurlan”-
2. 2003, səh.16.
3. Soltan Dadaşov.”Məlik Məmməd”//, “Ədəbiyyat” qəzeti, 1944-cü il, 18 may.
4. Əziz Şərif. “Qaraca çoban”//, “Kommunist” qəzeti, 1946-cı il, 30 aprel.
5. İnqilab Kərimov. “Mənalı gülüş”//, “Ədəbiyyat və incəsənət” qəzeti, 1959-cu il, 9 may.
6. Ağakişi Kazımov.”Aycan”//, “Bakı” qəzeti, 11 may 1974-cü il, səh.3

**Улькер Мамедова**

## Детские спектакли-сказки – от мифов до реальности

### Резюме

Автор статьи исследует пьесы в детской литературе Азербайджана, написанных на основе сказок и мифов. Особое внимание уделяется проблеме трансфера одушевленных и неодушевленных символических и аллегорических образов в реальные жизненные ситуации. В статье анализируются детские спектакли, поставленные на основе произведений Аттар Табризи, Низами Гянджеви, Физули и других классиков.

**Ключевые слова**: жанр, стиль, пьеса, идея, аллегория, время, образ.

**Ulker Mammadova**

## Children's performances-tales – from myths to reality

### Summary

The author explores tales-plays in children's literature of Azerbaijan, written on the basis of fairy tales and myths. Special attention is paid to the problem of transfer of the animated and inanimated symbolic and allegorical images in real life situations. The article analyzes children's performances based on the works of Attar Tabrizi, Nizami Ganjavi, Fizuli and other classics.

**Keywords**: genre, style, play, idea, allegory, time, image.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.03.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14.03. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 17.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**